**Mirzə, M**. Polad biləkli mübarizlərimiz, Vətən sizi unutmayacaq // Respublika. - 2025. - 4 iyun. - **№ 115**. - S. 11.

44 günlük Vətən müharibəsi şəhidlərindən biri, leytenant Əsədov Emil Balaqardaş oğlu Salyan rayonunun Çuxanlı kəndində dünyaya göz açıb. Vətən müharibəsi başlayanda cəmi 22 yaşı olan və zabit paqonlarının qürurunu doyunca yaşamağa imkan tapmayan Emil də Qarabağ uğrunda atalarının yolunu davam etdirən oğullardan idi. Emilin atası hərbçi olub. Balaqardaş Əsədov Birinci Qarabağ savaşında iştirak edib. 1994-cü ildə ordudan tərxis olunaraq, Yanğından Mühafizə Xidmətində işləməyə başlayıb. 2005-ci ildə yaş həddi ilə əlaqədar təqaüdə çıxıb. Anası Təranə xanım evdar qadındır.

Emil Əsədov 2004-2012-ci illərdə doğulduğu kənddə natamam orta təhsilini başa vurduqdan sonra 2012-2015-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə oxuyub. Ali hərbi təhsilini isə 2015-2019-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "Motoatıcı" ixtisası üzrə alıb. Hərbi xidmətinə 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Qusarda "N" saylı hərbi hissəində leytenant hərbi rütbəsi ilə başlayıb. Vətən müharibəsində taqım komandiri olaraq Hadrutun, Füzulinin, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Ermənistan ordusunun 90-dan çox canlı qüvvəsini və 14 texnikasını məhv edib, bir neçə dəfə yoldaşlarını mühasirədən çıxarıb, buna görə də "Qaya 11" ləqəbini qazanıb. Döyüşlər zamanı yaralanıb, hospitala təxliyə olunsa da, bir müddət sonra yenidən döyüş meydanına qayıdıb. Emil Əsədov noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Emil Əsədov ölümündən sonra "Qarabağ" ordeni, "Cəsur döyüşçü", "Vətən uğrunda", "Xocavəndin azad edilməsinə görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhid zabitin anası oğlu haqda qürurla bildirir: "Noyabrın 8-də gündüz dəfn etdik, gecə Qələbə müjdəsi eşitdik. Sevindik ki, balalarımızın qanı yerdə qalmadı. Biz onları çox çətinliklə böyütmüşdük. Bacısı Emiliya da, Emil də çox savadlı və intizamlı şagird olublar. Emil çox istedadlı idi. Hərbi Liseyə qəbul olundu. Oğlum düz 7 il hərb sənətini oxumuşdu... Hərbi xidmətində o qədər intizamlı idi ki, imkan tapıb yeganə bacısının toy məclisində də iştirak edə bilməmişdi... Dostlarının

dediyinə görə, Emil elə komandir olub ki, özü şəhid olsa da, onun taqımından 35 nəfər əsgərin hamısı sağ-salamat qalıb...".

Atası Balaqardaş Əsədov deyir ki, oğlu həmişə Vətən uğrunda şəhid olmağın şərəfli ölüm olduğunu deyərdi. Mən plan qururdum ki, onu evləndirim, qismət olmadı...

2020-ci ildə tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdilər. Qanları ilə müqəddəs torpaqları azad edərək Qələbəyə imza atan şəhidlərimiz bizlərə ömür boyu haqqında danışacağımız dastan qoydular. Özlərini doğmalarının gələcəyi üçün fəda edən polad biləkli mübarizlərimiz, vətən sizi unutmayacaq.